# Atam mənə ən yaxın dost, sirdaş, qardaş və ata idi...

*(Əvvəli ötən sayımızda)*

**- Onunla sonuncu dəfə aranızda olan görüşünüzü xatırlayırsınızmı, əgər yaddaşınızdadırsa, sonuncu görüşünüzlə əlaqədar xatirələrinizi bizimlə bölüşməyiniz yerinə düşərdi-.Atanızın Vətən müharibəsində göstərdiyi qəhrəmanlığından, şəhid olmazdan əvvəl sizinləhər hansı formada isə əlaqə saxlayıb-saxlamadığı barədə nələri deyə bilərsiniz?**

- Hamı kimi bizim üçün də 2020-ci il çox narahat il oldu. Başladığı gündən pandemiya, dərslərin bağlanıb onlayn sistemə keçməsi, iyul ayında general Polad Həşimov və polkovnik İlqar Mirzəyevlə birlikdə hərbçilərimizin şəhid olması atama çox təsir etmişdi. Atamda yağı düşmənə hədsiz nifrət var idi. Həmin ilin yay aylarında atam çox pis xəstələndi. Sağalmasına baxmayaraq sanki yorğunluq var idi canında. Baxmayaraq ki, sonda, xalqımıza qələbə sevinci yaşatdı, bununla belə 2020-ci il çox ağır il oldu. Anam hətta atama çox israrla söyləyirdi ki, məzuniyyət götürsün, bir az istirahət etsin, müalicə olunsun. Amma bunun mümkün olmadığını bizə, ola bilsin ki, demirdi.Atamın daxilində müharibə həyəcanı var idi. Atam həmişəki kimibu haqda elədə danışmırdı. Hərdən tərxis olmuş zabit yoldaşına zarafatyana müharibənin başlayacağını da deyirdi. Amma biz bunu ciddi qəbul etmirdik. Çünki narahat olmayaq deyə bu barədə bizə ciddi olaraq heç nə demirdi. Axırıncı dəfə atam tələm-tələsik gəldi evə ki, mən getməliyəm, məni gözləyirlər. Anam yenicə bişirdiyi yeməkdən süfrə hazırlamışdı. Buna baxmayaraq atam hazır yeməkdən belə yemədən evdən çıxdı, "Uşaqlar məni gözləyir, tələsirəm" dedi.

Biz buna vərdiş eləmişdik, çünki çox vaxt belə olurdu. Məndə həmçinin həmişəki kimi atamın qayıdacağı vaxtı gözləyirdim. Gəncə şəhərinə mənfur düşmənlərimiz tərəfindən raketlər atılan zaman atam çox narahat oldu, çünki onda biz Gəncədə yaşayırdıq. Özü yanımızda ola bilməyəcəyindən bizi Bakıya göndərdi. Hər gün, demək olar ki, telefonla danışırdıq. Hər dəfə də yenə həmişəki kimi dərslərimizdən və özümüzdən muğayat olmağı deyirdi. Ən ağır döyüş bölgələrində vuruşduğu, hər an təhlükədə olduğu halda yenə də bizim qayğımıza qalırdı. Anam hər danışanda ona deyirdi ki, sən özündən muğayat ol. Özünü qoru, gözlə, bizi düşün, sənsiz bizim halımızın necə olacağını fikirləş.7 noyabr atamla son danışığımız oldu. O, mənə yolda olduğunu, sonra zəng edəcəyini dedi. Biz sonradan bildik ki, həmin tarixdə elə həmin vaxtda erməni mənfurlarından, qəsbkarlarından torpaqlarımızı azad etmək üçün əlbəyaxa döyüşdə imiş. Axşamüstü idi, anam təkrar zəng edəndə artıq atama zəng çatmadı. Anam narahatçılıqdan özünə yer tapa bilmirdi.Ona görə də atamın müharibədə iştirak edən digər zabit yoldaşı ilə əlaqə saxladı.O da dedi ki, onlar öndə olduqları üçün əlaqə zəifdir. Həmin gündən də atam üçün daha çox narahat olmağa başladıq.



**- Atanızın necə şəhid olması, bundan necə xəbər tutmağınızı, həmin anda hansı hisslər keçirdiyinizi, onu nə vaxt dəfn etdiyinizi necə xatırlayırsınız?**

- Atamın şəhid olması xəbərini eşidəndə bir oğul kimi buna inanmağım gəlmirdi, özümü böyük şok və yuxuda hiss edirdim. Çünkibu günün mənim üçün çox mümkünsüz dərəcədə ağır olduğunu hesab edirdim. Atamla çox arzularımız, söhbətlərimiz olardı. Hələ tezliklə böyüyüb atama layiqli oğul olmağımı səbirsizliklə gözləyirdim. Maşına çox böyük marağım var. Bu marağıda mənə məhz atam aşılamışdı. Anamın dediyinə görə heç 1 yaşım olmamış məni özüylə götürüb maşını işə salana qədər qucağında, sükan arxasında oturdarmış, sonra məni evə qoyub hərbi hissəyə gedərmiş. Bundan sanki xüsusi bir zövq alarmış. Bu hal mənim 6-7 yaşıma kimi atamda vərdiş halı almış imiş. Atam mənim qürur mənbəyim idi. Atam mənim arxa-dayağım, ürəyimin taqəti idi. Atam - mənim həyatımda ən dəyərli varlığım idi!

**- Bir şəhid övladı kimi həmyaşıd həmvətənlərimizə arzu, istək və tövsiyələrinizi bildirməyiniz yaxşı olardı.**

- Heç bir uşağa arzu etmərəm ki, şəhid övladı olsun. Çünkihələ mənim bu yaşımda, atamın özünün də cavan yaşında onu torpağa tapşırmaq qədər mənim üçün ağır heç nə ola bilməz. Bu, mənim qismətimdə var imiş. Digər şəhid övladlarının da həmçinin. Buna baxmayaraq, adını Azərbaycanın şanlı tarixinə yazdığı üçün atamla, şəhidlərimizlə qürur duyuram. Bu gün bizim şəhid övladları ilə də sıx münasibətimiz var, çünki atalarımız Vətən yolunda canından keçdi! Atam hər dəfə evə gələndə və ya bir yerə gedəndə onsuzda onunla qürur duyurdum. Bu yerə-göyə sığmayacaq qədər sevinc, qürur idi. İndiki bu qürurda isə qürurla bərabər kədər də, hüzn də var. Həmyaşıdlarıma, şəhid övladlarına da şəhid atalarımız kimi Vətəni sevməyi, Vətən uğrunda canlarını sevə-sevə qurban vermək ruhunda böyüməyi, ləyaqətli, dəyanətli, mərd, cəsur, vicdanlı, ədalətli olmağı arzu edirəm. Onda, şəhid atalarımızın ruhu şad olar. Son olaraq bildirmək istəyirəm ki, Ali Baş Komandanın müvafiq fərmanları ilə Vətən müharibəsində göstərdiyi igidliyə, şücayətlərə, qəhrəmanlığa görəatam "Cəsur döyüşçü", "İgidliyə görə", "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.Çox arzulayıram ki, İmişli şəhər 8 saylı tam orta məktəbə atamın adı verilsin. İnşəAllah, arzum yerinə yetər və atamın adı əbədiləşər. Məncə, bu şəhidlərimizin ruhuna böyük ehtiram, şəhid ailələrinə isə böyük təskinlik, təsəlli olardı.

Çox sağ olun. Qiymətli vaxtınızı ayırıb müsahibə verdiyiniz üçün Sizə təşəkkür edirəm. Allah atanız - şəhid mayor Emin Süleymanovla birlikdə Vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin! Bu qürurlu, fəxrli və ağır itkini sona qədər çiynimizdə saxlayacaq və əlimizdən gələni edib şəhidlərimizi unutmayacağıqvə unutdurmayacağıq! Bu, bizim Allah dərgahında, Vətən və şəhidlərimizin ruhu qarşısında ən müqəddəs borcumuzdur! Şəhidimizin əziz xatirəsinə həsr etdiyim Şuşa qalasının topçusu Emin adlı şeirimi oxucularımın nəzərinə çatdırıram.

**Şuşa qalasının topçusu Emin!**

***Şəhid mayor Emin Bəhmən oğlu Süleymanovun əziz xatirəsinə (21 iyul 1977-ci il İmişli rayonu Xubyarlı kəndi - 9 noyabr 2020-ci il Laçın dəhlizi)***

43 il yaşadın təmiz adınla,
Doğru addımladın cənnət yolunda,
Sonda, şəhid oldun Laçın uğrunda,
Ana yurdun qüruruna çevrildin,
Şuşa qalasının topçusu Emin.

Yaxınlar gözündə pirdin, ocaqdın,
Onlar üçün yanırdın, yanacaqdın,
"Şəhid oğlu" adını bağışladın,
Səninlə fəxr edir igid Bəhmənin,
Şuşa qalasının topçusu Emin.
Övladın bildin əsgərlərini,
Ordumuzun aslanını, nərini,
Hərbə həsr etmişdin sən illərini,
Şıxlinskinin yolun davam etdirdin,
Şuşa qalasının topçusu Emin.

Sən Vətən yolunda fədai idin,
Gəncliyini bu yolda fəda etdin,
Dastan oldu Laçında şəhidliyin,
Müqəddəs amal uğrunda can verdin,
Şuşa qalasının topçusu Emin.

Şuşanı azad elədiyin anlar,
Səni görüb fəxr, qürur duydular,
Qacara meydan oxuyan topçular.
Qəhrəmanı oldun yüzilliklərin,
Şuşa qalasının topçusu Emin.

Çin oldu Qarabağla keçən yuxun,
Döyüş başlayanda quş kimi uçdun,
Murovdağdan başladı döyüş yolun,
44 gündə Laçına qədər getdin,
Şuşa qalasının topçusu Emin.

Yağı düşmən girsə donundan-dona,
Əbədi, tarixi dərs keçdin ona,
Zəfər tarixini əvvəldən sona,
Sən yazdın, oxudun, həm vərəqlədin,
Şuşa qalasının topçusu Emin.

Murovdağa biz qalxa biliriksə,
Qarabağa biz səfər ediriksə,
Şuşa qalasını seyr ediriksə,
Sənin sayəndədir, igidim mənim!
Vətənimin fəxri, Eminim mənim!

Ey şəhidim! Rahat uyu, rahat yat,
Cənnətində ruhun olsun daim şad,
Daha Qarabağda olmayacaq yad,
Şair qələmimlə edirəm əmin,
Ey qürur yerimiz, qəhrəman Emin.



***Sevindik* Nəsiboğlu**
***8-ci sinif şagirdi, şair-publisist, AJB-nin üzvü***
***04.03.2022***